AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*22.08 2024-cü il tarixli*
*3-29/3-2-340F/2024 nömrəli əmrinə*
*4 nömrəli əlavə*

ƏSLİ İLƏ DÜZDÜR

**Avtomatika sistemlərinin istismarı**

**T Ə H S İ L  P R O Q R A M I (KURİKULUM)**

**BAKI – 2023**

## 1. Ümumi müddəalar

1.1. Subbakalavr peşə-ixtisas dərəcəsi verən “Avtomatika sistemlərinin istismarı” ixtisasının təhsil proqramı “Təhsil haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Təhsil Nazirliyinin müvafiq qərarları ilə təsdiq edilmiş subbakalavr peşə hazırlığını həyata keçirən tədris proqramlarının hazırlanmasını tənzimləyən müvafiq hüquqi sənəd və qaydalara uyğun hazırlanmışdır.

1.2. Yüksək texniki peşə təhsili proqramları (kurikulumlar) təlim nəticələri və məzmun standartlarını, tədris fənn/modullarını, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi sistemini özündə əks etdirən sənəddir.

1.3 Təhsil Proqramı (kurikulum) tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün peşə təhsili müəssisələri üçün məcburidir.

1.4 Strukturda istifadə olunan işarələr:
**İTP –** ixtisas üzrə Təhsil Proqramı
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

1.5 Avtomatika sistemlərinin istismarı ixtisası üzrə təhsil proqramlarının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| | |
|---|---|
| **İxtisasın şifri və adı:** | 030214 Avtomatika sistemlərinin istismarı |
| **İxtisas qrupu / İqtisadi sektorlar:** | Avtomatlaşdırılmış texnologiyalar və istehsalat |
| **İxtisas dərəcəsi:** | 030214 “Avtomatika sistemlərinin istismarı”ixtisas üzrə subbakalavr |
| **Peşə təhsili səviyyəsi** | Yüksək texniki peşə təhsili |
| **Kreditlərin sayı:** | 180 |
| **AzMKÇ səviyyəsi:** | 5 |
| **İSCED kodu:** | 0714 Electronics and automation |
| **İstinad edilən kvalifikasiya standartları və kodları:** | |
| **Təhsil forması və müddəti:** | Əyani, Tam orta təhsil bazasından 3 il;<br>Ümumi orta təhsil bazasından 4 il. |
| **Məşğulluq imkanları:** | Müxtəlif sənaye sahələri üzrə istehsal müəssisələri, texniki xidmət və servis mərkəzləri |

030214 «Avtomatika sistemlərinin istismar ixtisası» ixtisası “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) 5-ci səviyyəsinə uyğundur.

1.6 Təhsil proqramı üzrə bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan-kənar yükünün ümumi həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir. Buraxılış dövlət və semestr

imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Tələbə üçün hər semestrdə 30 kreditə qədər modul və fənlərin tədrisi müəyyənləşdirilir. Müvəffəqiyyətlə təhsil alan tələbələrə əlavə ödəniş etmədən təhsil aldığı ixtisas üzrə əlavə modul (modullar) seçməyə icazə verilir və bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

1.7 Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin modul/fənn üzrə akademik borcu qalır. Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə modul (fənni) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki modul üzrə (hər moduldan bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər.

## 2. “Avtomatika sistemlərinin istismarı” ixtisası üzrə məzunların ixtisas xarakteristikası və kompetensiyası

2.1 **Subbakalavrın ixtisas xarakteristikası.**

2.1.1 Peşə fəaliyyətinin əsas istiqamətləri (vəzifə və funksiyalar):

- Avtomatika sistemlərini layihələndirmək
- Sənayenin müxtəlif sahələrinə inteqrasiya
- Avtomotaka sistemlərinə texniki qulluq
- Hidravlik və Pnevmatik sistemləri dizayn etmək
- Hidravlik və Pnevmatik sistemlərin avtomatik idarəsini təşkil etmək
- Ardıcıl idarəetmə sistemini idarə etmək
- Elektromaqnit induksiyaya və induktivliyə nəzarət etmək
- Xəbərləşmə protokollarını tətbiq etmək
- PİD idarə sistemlərini bilir
- Servo motorları idarə edir
- Avtocad vasitəsiylə dövrə qurmaq
- SCADA sistemlərini dizayn edir
- Lift idarə sistemini qurur
- Motor idarəsistemini qurur
- Sabit və dəyişən cərəyan dövrələrində müxtəlif təyinatlı dövrələri qurur
- Operator panellərini PLC ilə əlaqələndirir
- HMİ qurğuların dizayn edir və PLC ilə sinxronlaşdırır
- RS232 və RS485 xəbərləşmə protokolları ilə PLC HMİ əlaqəsini qurur
- Robototexnika sistemlərini dizayn edir
- Yanğın mühafizə sistemlərini avtomatlaşdırır
- Müxtəlif təyinatlı sensorları tətbiq etməyi bacarır
- Elektrik dövrələrinin simuliyasiya və dizayn olunması

2.1.2 Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:

İxtisas üzrə:

- Elektrik sahəsi üzrə biliklər
- Avtomatikm idraə etmə qurğuları haqqında biliklər
- Texniki qulluq haqqında biliklər
- Təhlükəsizlik tədbirləri haqqında biliklər
- Avtomatik sensor sistemini haqqında biliklər
- Kaskad ilə zəncirvari dövrəni haqqında biliklər
- Avtomatik sistemin PLC vasitəsilə idarə edilməsi haqqında biliklər
- HMI (İnsan-maşın interfeysi) sistemini haqqında biliklər
-

Yumşaq bacarıqlar (soft skills):

- Zamanın idarə olunması
- Problem həll etmə
- Yaradıcılıq

2.2. **Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- kollektivdə işləmək **(ÜK-1);**
- öz sahəsi və digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- etik normalara malik olmaq **(ÜK-3);**
- sağlam həyat tərzini gözləmək **(ÜK-4);**
- tənqid və özünətənqidə dözümlülük göstərmək **(ÜK-5);**
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək **(ÜK-6);**
- dövlət dilində sərbəst danışmaq **(ÜK-7);**
- xarici dildə ünsiyyətdə olmağı və fikrini ifadə etməyi bacarmaq **(ÜK-8);**
- İKT-dən istifadə etməyi bacarmaq **(ÜK-9);**
- öz inkişafına, peşəkarlığının artırılmasına çalışmaq **(ÜK-10);**
- fikrini düzgün və yığcam ifadə etmək **(ÜK-11);**
- Peşə fəaliyyəti və gündəlik həyatda əmək təhlükəsizliyi və sağlamlıq qaydalarına riayət etmək və digər şəxslərə məlumatlandırmaq **("ÜK-12).**
- Xidmət göstərdiyi fəaliyyəıt sahəsi üzrə daim yenilkləri araşdırmaq **(ÜK-13)**

2.2.2 Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

- fəaliyyət sahəsinə aid olan, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələrinin, təşkilatların, idarələrin, müəssisələrin, şirkətlərin və s. əsas problemlərini sistemləşdirməyi bacarmaq, onların kompleks təhlilini aparmaq və idarəetmə məqsədləri üçün konkret nəticə çıxarmaq və aradan qaldırmaq **(PK-1);**
- mövcud tələbləri müvəffəqiyyətlə müəyyənləşdirə bilmək və uyğun bir həll metodu seçmək və tətbiq etmək, müvafiq sənədləşmə aparmaq və hesabatlar hazırlamaq **(PK-2);**
- peşə fəaliyyətində İKT-dən istifadə etmək **(PK-3);**
- qarşıya müəyyən vəzifələr qoymağı, onları həll etməkdə müvafiq metodları seçməyi və tətbiq etməyi bacarmaq **(PK-4);**
- ixtisasla bağlı əsas anlayış və terminlərin mənasını bilmək və praktikada tətbiq etmək **(PK-5).**
- ixtisasla bağlı müxtəlif layihələrin planlaşdırılması və icrasında iştirak etmək **(PK-6);**
- ixtisasla bağlı aşağıdakı bilik, bacarıq və səritşərlərə yiyələnmək **(PK-7)**.
  - Avtomatika sistemlərini layihələndirmək və texniki qulluq işləri
  - Müxtəlif təyinatlı elektrik dövrələrini avtomatlaşdırmaq
  - Hidrovlik və pnevmatik sistemləri dizayn etmək, manual və avtomatik idarə etmək
  - Robototexnika sistemlərini dizayn etmək
  - Yanğın mühafizə sistemlərini avtomatlaşdırmaq
  - Müxtəlif təyinatlı sensorları tətbiq etməyi bacarmaq
  - SCADA sistemi dizayn etmək
  - PLC sistemlərini proqramlaşdırmaq
  - Lift idarə sistemini qurmaq

## 3. “Avtomatika sistemlərinin istismarı” ixtisası üzrə təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

Humanitar və baza modulları bölümünə daxil olan modullar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.03.2019-cu il tarixli, 85 №-li qərarı ilə təsdiq olunmuş «Peşə təhsilinin dövlət standartları»nda əks olunan “ömürboyu təhsil” prinsipinə uyğun müəyyənləşdirilmişdir.

Humanitar və baza modulları bölümü üzrə təhsilalan “ömürboyu təhsil” prinsipinə uyğun olaraq aşağıdakı bilik və bacarıqlar əldə edəcəkdir:

- ixtisas üzrə peşə fəaliyyətini təmin edən ana dilində və xarici dildə yazılı və şifahi ünsiyyət qurmaq üçün nəzəri və təcrübi biliklərə malik olmalı;
- ixtisas üzrə qazanılmış biliklərdən istifadə etməli;
- informasiyanın toplanması və emalında müasir üsullardan istifadə etməli, müxtəlif hesablamaları aparmalı;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilməli;
- peşə fəaliyyəti dairəsinə aid olan məlumatların işlənilməsində və saxlanılmasında kompyuter texnologiyasından istifadə etməli;
- peşə fəaliyyətində sahibkarlıq düşüncəsini və ideyalarını əsas götürməli;
- peşə fəaliyyətində peşənin tələb etdiyi işgüzar etika və davranış qaydalarına əməl etməli;
- peşə fəaliyyətində “ömür boyu” öyrənmə prinsiplərini rəhbər tutaraq şəxsi inkişafa və düzgün karyera planlamasını əsas götürməlidir.

İxtisas üzrə baza biliklərin formalaşmasını imkan verəcək aşağıdakı modulların tədrisi də bu bölümdə icra edilir (məs. Texniki rəsmxətt, İstehsalatın İdarəedilməsi və s.). Bu təhsilalana texniki biliklərin formalaşması, həmçinin gələcək iş prosesində müəyyən idarəçilik funksiyalarının icrası üçün tələb olunan səriştələrin əldə edilməsinə istiqamətlənir.

### 3.1 İxtisas üzrə modul və fənn bölümləri, modul və fənn mənimsənilməsi (təlim) nəticələri (bilik, bacarıq və yanaşma baxımından) və kreditləri, qazanılması nəzərdə tutulan kompetensiyaların kodları:

#### 3.1.1 Ümumtəhsil fənlər bölümü:

Ümumtəhsil fənləri bölməsinə daxil olan fənlər 29 mart 2019-cu il 1532-VQ nömrəli “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanunun və “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarının tələblərinə uyğun müəyyənləşdirilmişdir.

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda tədrisin birinci ilində ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

| Fənn bölümünün kodu | Fənlərin adı | Saat miqdarı (həftəlik) |
|---|---|---|
| ÜF-B01 | Azərbaycan dili | 3 |
| ÜF-B02 | Xarici dil | 4 |
| ÜF-B03 | Riyaziyyat | 4 |
| ÜF-B04 | Fizika | 3 |
| ÜF-B05 | Kimya | 3 |
| ÜF-B06 | Ədəbiyyat | 1 |
| ÜF-B07 | Azərbaycan tarixi | 1 |
| ÜF-B08 | Coğrafiya | 1 |
| ÜF-B09 | Ümumi Tarix | 1 |
| ÜF-B10 | Biologiya | 1 |
| ÜF-B11 | İnformatika | 2 |
| ÜF-B12 | Fiziki tərbiyə | 2 |
| ÜF-B13 | Çağırışaqədərki hazırlıq | 2 |
| İT - B01 | Praktiki laboratoriya dərsləri / istehsalat təlimi | 7 |
| **Cəmi:** | | **35** |
| Qeydlər: | | |
| Ümumtəhsil fənləri tədris olunduğu halda, həmin fənlərə kreditlər ayrılmır. Tədris müddəti 38 həftə (18/20) davam edir. | | |

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş “Ana dilində ünsiyyət” səriştəsi “Azərbaycan dili”, “Xarici dildə ünsiyyət” səriştəsi “Xarici dil”, “İnformasiya texnologiyaları” səriştəsi “İnformatika”, “Hesablama əməliyyatlarını yerinə yetirmə” səriştəsi isə “Riyaziyyat” fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.

“Xarici dil” və “İnformatika” fənnin tədrisi tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda 2 (iki) qrupa bölünərək aparılır.

Praktiki laboratoriya dərsləri və ya istehsalat təlimi tədrisi təhsil müəssisəsi tərəfindən laboratoriya və emalatxana şəratinə əsasən tədris edilir.

**3.1.2 Kadr hazırlığı üçün tələb olunan modul və fənn bölümü:**

| Modul / Fənn | Təlim nəticəsi | Mənimsənilmə nəticələri | | | Modullar üzrə kredit-lərin sayı | Kompetensi yaların kodları |
|---|---|---|---|---|---|---|
| | | Bilik | Bacarıq | Yanaşma | | |
| **Təhsil hissəsi** | | | | | | |
| **HBM – B00** | **Humantira və baza modullar bölümü**<br>Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr: | | | | | |
| **HBM–B01**<br>Azərbaycan tarixi | | - Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə təsəvvürə, müstəqillik yolunda qazandığı nailiyyətlər, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı; | Tarixi inkişaf mərhələlərini müqayisə və təhlil etməyi, tarixin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi. | | **5** | **ÜK-1 ÜK-2 ÜK-5** |
| **HBM–B02**<br>Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | - Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli, nitqin düzgünlüyü, aydınlığı və dəqiqliyi naminə sözləri düzgün tələffüz etməyi; | Azərbaycan dilinin leksikonundan peşə fəaliy-yətində istifadə etməyi, dil qaydalarına uyğun danışmağı və yazmağı, rəsmi və işgüzar üslubda yazmağı və danışmağı; | | **4** | **ÜK-7 ÜK-3 ÜK-4 ÜK-11** |
| **HBM-B03 / B04 / B05** İnformasiya texnologiyaları | | - İnformasiya texnologiyalarından istifadə etməklə ixtisas aid məlumat, əldə etmək və tətbiqi imkanlarını; | - İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi və rəqəmsal məzmun yaratmağı, müvafiq sosial media vasitələrindən istifadə etməyi; | İKT, sosial media və digər proqram təminatlarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **6** | **ÜK-9 PK-2 ÜK-13** |
| **HBM-B06 / B07 / B08 / B09** Xarici dildə işgüzar və akademik kommunikasiya | | - Xarici dildə olan ixtisasa aid ədəbiyyatı oxuyub başa düşməyi; | - Xarici dildə olan ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə et-məyi, tərcümeyi-hal və digər rəsmi sənədləri xarici dildə tər-tib etməyi, xarici dildə yazılı və şifahi ünsiyyət qurmağı; | Xarici dildə olan material-lardan peşə fəaliyyətində istifa-də etmək vərdişlərinə. | **12** | **ÜK-1 ÜK-8 ÜK-13** |
| **HBM-B10 / B11**<br>Texniki hesab | | - Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, və peşə fəaliyyəti ilə bağlı riyazi düşüncəni tətbiq etməyi; | - İxtisas uyğun müvafiq hesablamalar aparmağı, qrafik və cədvəlləri hazırlamaq və istifadə etməyi, təsviri statistikadan istifadə etməyi; | Riyazi yanaşma və metodlardan peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **4** | **ÜK-2 PK-3** |
| **HBM-B12** Şəxsi inkişaf və karyera planlaması | | - Fərdi özünü inkişaf və karyera planlaması üzrə yanaşma və tətbiqləri başa düşməyi; | - Karyera məqsədlərini müəyyən etməyi, karyera inkişafında müasir işaxtarma və müraciət üsullarından istifadə etməyi; | Fərdi və karyera inkişafı üçün müasir planlama və tətbiq mexanizmlərindən istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-6 ÜK-10** |
| **HBM-B13** Layihə İdarə edilməsi | | - Layihələrin hazırlanması, idarə edilməsi və monitorinqi mərhələlərini izah etməyi və fəaliyyətlərin düzgün planlaması tətbiq etməyi; | - Müxtəlif ölçülü layihələrin idarə edilməsi üçün layihə planlaması və idarə edilməsi üzrə alət və üsullardan istifafə etməyi; | Layihə planlanması və idarə edilməsi üzrə müasir yanaşma və vərdişlərə | **3** | **PK-6** |
| **HBMS–B00** | **Seçmə modullar*** | | | | | |
| **HBMS-B01**<br>Etika və estetika (İşgüzar Etika) | | - Peşəkarlıq prinsipləri və iş yerində davranış qaydalarını; | - Peşəkarlıq prinsipləri və komanda ilə səmərəli işləməni, vaxtdan səmərəli istifadə etməyi, iş yerində davranış qaydalarına əməl etməyi; | Peşəkarlıq və səmərli iş prinsiplərini, iş yerində düzgün davranış qaydalarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **HBMS-B02**<br>Estetika və Mədəni İfadə | | - Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını başa düşməyi; | - Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə etməyi; | Peşə fəaliyyətində etiket bə nəzakət qaydalarından istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5** |
| **HBMS-B03**<br>STEM | | - STEAM Mühəndislik və Dizaynın əsasları;<br>- 3D qələm, 3D CAD Modelləşdirməyə girişi;<br>- Mikrobit ilə Robototexnika -proqramlaşdırmaya girişi;<br>- CNC lazer texnologiyasına girişi;<br>- Dron texnologiyasının əsaslarını. | - 3D qələm və 3D CAD modelləşdirmə ilə müxtəlif obyektlərin dizaynını;<br>- Mikrobit ilə robototexnika proqramlaşdırma əsasında müxtəlif layihələrin proqramlaşdırılması;<br>- CNC lazer texnologiyası əsasında müxtəlif obyekt düzəldilməsini;<br>- Dron texnologiyası üzrə müəyyən fəaliyyətləri. | STEAM Mühəndisliyi, CNC lazer və Dron texnologiyası üzrə müxtəlif praktiki vərdişlərə. | **3** | **ÜK-9 ÜK-13 PK-2** |
| **HBMS-B04**<br>Sahibkarlığın əsasları və biznesə giriş | | - Sahibkarlıq düşüncəsi və yanaşmalarını və onların peşə fəaliyyətində tətbiqi imkanlarını başa düşməyi; | - Peşə fəaliyyəti üzrə tətbiq edilə bilən sahibkarlıq ideyalarını müəyyən etməyi, biznes planlar hazırlamağı və biznes planları təhlil edərək onları tətbiq etməyi; | Peşə fəaliyyətində sahibkarlıq düşüncəsi və sahibkarlıq istiqamətində planlar hazırlama və tətbiq etmək vərdişlərinə. | **3** | **PK-1 PK-6** |
| **HBMS-B05**<br>İstehsalatın idarə edilməsi | | - İxtisasına aid istehsalat sahələrinin əsas idarəetmə prinsip və mexanizmlərini başa düşməyi; | - Peşə fəaliyyətindən asılı olaraq istehsalatın planlanması və idarə edilməsi ilə bağlı prinsipləri düzgün formada tətbiq etməyi; | İxtisasa aid istehsalatın idarə edilməsinin əsas prinsiplərinin peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **3** | **PK-1 PK-6** |
| **ASİ-İM-B00** | **İxtisas peşə hazırlığı modulları bölümü**<br><br>Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr: | | | | | |
| **ASİ-İM-B13 / ASİ-İM-B20**<br>Ardıcıl idarəetmə I / II | Rezistorun dəyərini ölçməyi bacarır.<br>Mühərrik dövrəsini ölçməyi bacarır<br>Gərginlik və cərəyanı ölçməyi bacarır<br>Elektrik enerjisini ölçməyi bacarır<br>Bir fazalı asinxron mühərriki idarə etməyi bacarır<br>Düzləndirici dövrəsini idarə etməyi bacarır<br>RLC (R-Rezistor; L-induktor; C-kondensator) dəyərini hesablamağı bacarır | - Ardıcıl və paralel birləşməni izah etmək<br>- Enerji ölçmə metodlarını izah etmək<br>- Birfazlı və üç fazlı mühərriklərin iş prinsiplərini izah etmək<br>- Rotor və statoru arıd etmək<br>- Elektrik dövrələrini quran zaman təhlükəsizlik tədbirlərini izah edir<br>- Körpü sxemlərini izah edir<br>- İnduktivlikçtutum və müqavimət arasındakı əlaqəni izah edir | - Voltmetr dən istifadə edərək gərginliyi ölçmək<br>- Ampere metrdən istifadə edərək cərəyanı ölçmək<br>- Təyinatına uyğun olaraq multimetrdən düzgün istifadə etmək | | **5 / 6** | **PK – 1<br>PK – 2<br>PK – 3<br>PK – 4<br>PK – 5<br>PK – 6<br>PK – 7** |
| **ASİ-İM-B03 / ASİ-İM-B04**<br>Elektrotexnika və Elektronika Mühəndisiyi I / II | Atomlar, elektronlar və tutum haqqında bilir<br>Keçiricilik və müqavimət haqqında bilir<br>Elektrik dövrəsi, gərginlik və cərəyanı bilir<br>Om Qanunu və enerji haqqında bilir<br>Ardıcıl və paralel dövrə haqqında bilir | - Elektrik dövrə elenmentlərini gərginlik və cərəyanı anlamaq<br>- Ardıcıl və paralel dövrələr üçün Om qanunu izah etmək<br>- Elekrtonik dövrə elementlərinin iş prinsipini bilmək<br>- Elektomaqnit induksiya və induklivliyi izah etmək | - Müsbət və mənfi yüklü elementləri ayrıd etmək;<br>- Gərginlik və cərəyanı fəqrləndirmək;<br>- Müxtəlif dövrələrə Om qanunu tətbiq etmək;<br>- Müxrəlif elektronik dövrələri qurmaq<br>- Müxtəlif təyinatlı yarımkeçirləri istifadə etmək; | Elektrotexnika və elektronikanın əsasları, qanunauyğunluqlar və iş prinsipi üzrə ilkin biliklərə yiyələnmək | **3 / 4** | **PK – 1<br>PK – 2<br>PK – 3<br>PK – 4<br>PK – 5<br>PK – 6<br>PK – 7** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Elektromaqnit induksiya və induktivlik haqqında bilir<br>Enerji istehsalı haqqında bilir<br>Yarımkeçiricilər və diodlar haqqında bilir<br>İnteqrə edilmiş dövrələr və xüsusi cihazlar haqqında bilir | | | | | |
| **ASİ-İM-B06 / ASİ-İM-B09**<br>Avtomatlaşdırma sistemi I / II | Fərdi kompüterdə PLC (proqramlaşdırıla bilən məntiqi kontroller) proqram təminatının quraşdırmağı bacarır<br>PLC dilinin istifadə etməyi bacarır<br>PLC vasitəsi ilə lampa nəzarətinin idarə edilməyi bacarır<br>PLC vasitəsilə sayğacı idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə vaxt tənzimləyicisini idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə konveyeri (nəqledicinin) idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə lifti idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə yanğın aşkarlama sistemini idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə sürət səviyyəsini idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə istilik sistemini idarə edilməyi bacarır<br>PLC vasitəsi ilə mühərrik nəzarətini idarə edilməyi bacarır<br>Asinxron mühərrikin dönmə anını ölçməyi bacarır<br>HMI (İnsan-maşın interfeysi) sistemini idarə etməyi bacarır<br>XP-Builder proqram təminatından istidfadə etməyi bacarır | - PLC proqramlaşdırma dili və proqram paketlərini izah etmək<br>- PLC ilə müxtəlif tənzimləmələrin nəzəri əsasları: lampa nəzarətinin, sayğacın, taymer və konveyerin idarə edilməsi<br>- Zaman tənzimləyicilərinin növlərini sadalayır<br>- Lift idarə dövrəsini izah etmək<br>- PLC ilə müxtəlif tənzimləmələrin nəzəri əsasları: səviyyə nəzarəti, yanğın xəbərdarlıq sistemi, avtomatik qapı, mühərrik nəzarəti və istilik sisteminin idarə edilməsi<br>- Asinxron mühərrikin dönmə anını ölçmək<br>- HMI sistemini idarə edilməsi<br>- Pnevmatik nəzarət sisteminin iş prinsipi | - Kompüterdə PLC proqram təminatını quraşdırmaq<br>- PLC vasitəsiylə lampa nəzarət dövrəsini qurmaq<br>- PLC vasitəsiylə sayğac dövrəsini hazırlamaq<br>- PLC ilə taymeri idarə ermək<br>- PLC ilə konveyeri idarə ermək<br>- PLC ilə lifti İdarə etmək<br>- PLC ilə yanğın xəbərdarlıq sistemini idarə etmək<br>- PLC ilə səviyyə nəzarətini idarə etmək<br>- PLC ilə istilik sistemini idarə etmək<br>- PLC ilə mühərrik nəzarətini idarə etmək<br>- PLC ilə avtomatik qapını idarə etmək<br>- Asinxron mühərrikin dönmə anını ölçmək<br>- HMI sistemini idarə etmək<br>- Pnevmatik nəzarət sistemini yığmaq | Avtomatik sistemlərin qurulması, tənzimlənməsi və idarə edilməsi üzrə ilkin praktiki vərdişlər. | **5 / 6** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |
| **ASİ-İM-B01**<br>Avtomatlaşdırılmış idarəetmə nəzarəti | Avtomatlaşdırılmış idarəetmə sistemlərini bilir<br>Riyazi əsasları bilir<br>Sistemin riyazi modelini bilir<br>Ötürücü funksiyanı bilir<br>Blok diaqramı və siqnal axınının diaqramını bilir | - Avtomatlaşdırılmış proseslərin nə olduğunu izah etmək<br>- Avtomatik idarəetmə sistemlərinin struktur və vəzifələrini sadalamaq<br>- Avtomatlaşdırılmış sistemin riyazi modeli<br>- Ötürmə funksiyasını izah etmək<br>- Blok diaqramı və siqnal axınının diaqramı<br>- Əks əlaqəli tənzimləmə sisteminin dinamik | - Avtomatik idarə etmə sistemlərinin tənliklərini istifadə etmək<br>- Riyazi modelin qurmaq<br>- Dəyişən vəziyyət metodu ilə idarəetmə sisteminin analizi<br>- İdarəetmə sisteminin dizaynı və kompensasiyası | Avtomatlaşdırılmış idarəetmə sistemlərinin əsasları və nəzarət funksiyaları üzrə ilkin vərdişlər. | **3** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Əks əlaqəli tənzimləmə sisteminin dinamik xarakteristikalarını bilir<br>İdarəetmə sisteminin tezlik xarakteristikasını bilir | xarakteristikaları<br>- Kök lokusu metodu<br>- Tezlik xarakteristikasını dərk etmək | | | | |
| **ASİ-İM-B02**<br>PLC idarəetmə | PLC-nin xülasəsi və strukturunu bilir<br>Proqramlaşdırmanı bilir<br>Əsas əmrləri bilir<br>Funksiya və funksiya bloklarını bilir<br>İdarəetmə operatorundan istifadə etməklə PLC proqramlaşdırmanı bilir<br>Əsas idarəetməni bilir<br>Təchizat silindrinin idarə edilməsini bilir<br>Addımlı silindrin idarə etməyi bilir | - PLC haqqında ilkin anlayışları izah etmək<br>- PLC proqramlaşdırmasını anlamaq<br>- Proqramlaşdırma dillərini tanımaq<br>- Əsas əmrlərin funksiyalarını izah etmək<br>- Funksiya blokundakı funksiyaları sadalamaq<br>- PLC ilə təchizat silindrin əlaqələndirilməsini izah etmək | - İdarəetmə operatorundan istifadə etməklə PLC proqramlaşdırma bacarığı<br>- Addımlı silindrin idarə edilməsi<br>- Materialların anbara yüklənməsinin idarə edilməsi<br>- Sensordan istifadə edərək materialların ayrılmasının idarə edilməsi<br>- (Mühərrikin idarəedilməsi | PLC proqramlaşdırması üzrə ilkin vərdişlər | **4** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |
| **ASİ-İMS-B02**<br>Texniki rəsmxətt | İxtisasa aid çertyojların və eskizlərin hazırlanma mexanizmini bilir<br>İxtisasa aid çertyojların və eskizlərin peşə fəaliyyətində tətbiq imkanlarını başa düşür<br>İxtisas aid sxem, çertyoj və planları təhlil edir və peşə fəaliyyəti ilə əlaqədar düzgün formada tətbiq edir. | - İxtisasa aid çertyojların və eskizlərin hazırlanma mexanizmi<br>- Sxem, çertyoj və planların hazırlanma elementləri və simvolları<br>- Sxem, çertyoj və planların hazırlanması üzrə tələblər<br>- Sxem, çertyoj və planların hazırlanma peşə fəaliyyətində tətbiq imkanları | - İxtisas aid sxem, çertyoj və planları düzgün oxumaq və izah etmək<br>- İxtisas aid sxem, çertyoj və planları təhlil etmək<br>- Peşə fəaliyyəti ilə əlaqədar düzgün formanı seçmək və tətbiq etmək | İxtisasa aid sxem, çertyoj və eskizləri peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **3** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |
| **ASİ-İM-B05**<br>Hidravlik güc nəzəriyyəsi | Hidravlik güc haqqında ilkin məlumatlara sahibdir<br>Sürtünmə itkiləri və hidravlik nasoslar haqqında bilir<br>Hidravlik silindr və hidravlik mühərriklər haqqında bilir<br>Hidravlik dövrə dizaynı və analizi, hidravlik sistemlərə texniki xidmət haqqında bilir<br>Pnevmatik dövrələr haqqında bilir<br>Hidravlik güc dövrələri üçün əsas elektrik idarəetmə sxemlərini bilir | - Hidravlik gücün əsasları və fiziki xüsusiyyətləri<br>- Hidravlik sistemlərdə enerji və güc<br>- Hidravlik sistemlərin çalışması üçün lazım olan təməl fiziki anlayışları sadalamaq<br>- Hidravlik boru kəmərlərində sürtünmə itkiləri<br>- Hidravlik nasoslar, onların tətbiq sahələrini və işləmə prinsiplərini dərk etmək<br>- Hidravlik klapanlar və mühərriklər<br>- Hidravlik dövrə dizaynı və analizi<br>- Hidravlik konduktorlar və alətlər<br>- Pnevmatik sistemləri və tətbiq sahələrini izah etmək<br>- Pnevmatika: hava hazırlığı və komponentləri<br>- Pnevmatika: dövrələr və tətbiqlər<br>- Hidravlik güc dövrələri üçün elektrik idarəetmə<br>- Hidravlik məntiqi idarəetmə sistemləri | - Dövrələri oxumağı, analiz və dizayn etmək<br>- Hidravlik sistemlərə texniki xidmət | Hidravlik gücün idarəedilməsi, nəzarət prinsipləri və əməliyyat xüsusiyyətləri üzrə vərdişlər | **4** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | - Siqnal toqquşmaları və qarşısının alınması və Kaskad metodunu ayırd etmək | | | | |
| **ASİ-İM-B07 / ASİ-İM-B15**<br>Hidravlik güc I / II | Qarşılıqlı tək silindr dövrəsinin işlətməyi bacarır<br>Qarşılıqlı cüt silindr dövrəsini işlətməyi bacarır<br>Silindr sürət dövrəsini idarə etməyi bacarır<br>Avtomatik geridönmə dövrəsini işlətməyi bacarır<br>Məntiq idarəetmə sistemini tətbiq etməyi bacarır<br>Pnevmatik ardıcıl nəzarət sisteminiidarə etməyi bacarır<br>Hidravlik silindr dövrəsini idarə etməyi bacarır<br>Elektropnevmatik məntiqi dövrəni idarə etməyi bacarır<br>Elektropnevmatik avtomatik qayıtma dövrəsini idarə etməyi bacarır<br>Elektropnevmatik ardıcıl əməliyyat dövrəsinin idarə etməyi bacarır<br>Elektrohidravlik sistemin fasiləsiz irəli-geri hərəkət dövrəsini idarə etməyi bacarır<br>Elektrohidravlik silindri işə salmağı bacarır<br>Elektrohidravlik avtomatik qayıtma dövrəsini idarə etməyi bacarır<br>Hidravlik mühərrikin idarəetməsini yerinə yetirməyi bacarır<br>Elektrohidravlik sistemin fasiləsiz irəli-geri hərəkət axınını idarə etməyi bacarır<br>Kaskad 1 və 2 ilə zəncirvari dövrəni idarə etməyi bacarır | - Təkli silindrin önə və arxaya hərəkətinə dair 5-dən artıq yanaşmanın izahı<br>- Cüt silindri irəli və arxaya hərəkətinə dair 5-dən artıq yanaşmanı izah etmək<br>- Fərqli axın klapanlarının işləmə prinsipini sadalamaq<br>- Pnevmatik idarə etmə və ardıcıl nəzarət sisteminin izahı<br>- Hidravlik sistem və silindr dövrəsininin izahı<br>- Elektromaqnit klapan ilə silindr idarəetmə dövrəsini hərəkət etdirməyin 5-dən artıq yolunu izah etmək<br>- İkili silindr idarəedilməsində avtomatik geridönmə dövrəsinin hərəkətinin 3-dən artıq yanaşmasını sadalamaq<br>- Hidravlik mühərrik dövrə idarə edilməsini yaxşı işlədə bilmək üçün taymerdən istifadə etməklə dövrənin vaxt interval əməliyyatını izah etmək | - Qarşılıqlı tək silindri idarə etmək<br>- Qarşılıqlı cüt silindri idarə etmək<br>- Silindr sürəti dövrəsini idarə etmək<br>- Avtomatik qayıtma dövrəsini idarə etmək<br>- Məntiqi nəzarət sistemini idarə etmək<br>- Pnevmatik ardıcıl nəzarət sistemini idarə etmək<br>- Pnevmatik idarə<br>- etmə klapanlarını düzgün istifadə etmək<br>- Hidravlik sistem və silindr dövrəsini idarə etmək<br>- Sayğacın giriş/çıxış dövrəsini idarə etmək<br>- Elektropnevmatik məntiqi dövrəni idarə etmək<br>- Elektropnevmatik avtomatik qayıtma dövrəsini idarə etmək<br>- Elektropnevmatik ardıcıl nəzarət sistemini idarə etmək<br>- Ardıcıl əməliyyat dövrəsini idarə etmək<br>- Elektropnevmatik fasiləsiz əks dövrəni idarə etmək<br>- Elektrohidravlik silindri işə salmaq<br>- Elektrohidravlik avtomatik qayıtma dövrəsini idarə etmək<br>- Hidravlik mühərrikin idarəetməsini yerinə yetirmək<br>- Elektrohidravlik sistemin fasiləsiz irəli-geri hərəkət axınını idarə etmək<br>- Kaskad 1 və 2 ilə zəncirvari dövrəni idarə etmək<br>- Siqnalların ikiləşdirilməsinin qarşısının alınmasını təmin edən sistemi idarə etmək | Pnevmatik, hidravlik idarə etmə və nəzarət sistemləri üzrə ilkin vərdişlər. | **6 / 3** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |
